# Verilənlər Cədvəli

## Yeni 5 dollarlıq əskinaz nə zaman və necə dövriyyəyə buraxılacaq?

Federal Ehtiyat Sistemi ABŞ valyutasını banklar, kredit birlikləri, əmanət bankları kimi depozit müəssisələri vasitəsilə xalqın istifadəsinə buraxır. Yeni 5 dollarlıq əskinaz:

- Pul Nişanlarının və Qiymətli Kağızların Buraxılması Bürosunun (PNQKBB) Texasın Fort-Uert şəhərindəki zavodunda istehsal edilir;
- Ölkədə yerləşən 33 Federal Ehtiyat ofislərinə paylanır;
- Federal Ehtiyat Banklarına olan sifarişlərə əsasən ABŞ-da və bütün dünya üzrə 9,500-dən çox müştəriyə göndərilir;
- İri banklar tərəfindən kiçik banklara, bank işçiləri və bankomatlar vasitəsilə xalqa, dükanlar və pərakəndə satış mərkəzləri kimi biznes müştərilərinə ötürülür.

Bu yollarla Federal Ehtiyat Sistemi yeni 5 dollarlıq əskinazı dövriyyəyə daxil edəcək və ictimaiyyət bundan istifadə edə biləcək.

### Çatdırılmaya Hazır

PNQKBB yeni 5 dollarlıq əskinazları Federal Ehtiyat ofislərinə 2008-ci il yanvardan göndərməyə başlayıb. 2008-ci il 13 martda və ondan üç həftə sonrakı müddətdə Federal Ehtiyat ofisindən beş dollarlıq əskinaz sifariş edən hər hansı kommersiya bankı, əmanət bankları və ya kredit birlikləri öz sifarişlərini yeni dizaynda alacaqlar. İri banklar səciyyəvi olaraq valyutanın hər gün çatdırılmasını sifariş edirlər, ancaq hər bank bunu sifariş etmir. Daha kiçik nağd əməliyyatlar həyata keçirən depozitar müəssisələr üçün onların nə vaxt sifariş vermələrindən və Federal Ehtiyat ofislərindən nə qədər uzaqda yerləşmələrindən asılı olaraq yeni dizaynlı 5 dollarlıq əskinazlar bir neçə günə və daha uzun müddətə çatdırıla bilər.

Depozitar müəssisələr yeni dizaynlı beş dollarlıq əskinazları əldə etdikdən sonra, bu əskinazları kassirlərin siyirtmələrinə nə vaxt qoyacaqları və ya biznes müştəriləri üçün nağd əməliyyatlarda nə vaxt istifadə edəcəkləri onlardan asılıdır.

Yeni dizaynlı 5 dollarlıq əskinazlar Federal Ehtiyat ofislərinin yaxınlığında yerləşən iri banklar vasitəsilə martın 13-də istifadəyə buraxıla bilər. Yeni dizaynlı 5 dollarlıq əskinazların ictimaiyyətə nə zaman çatdırılması məsafədən, valyutaya olan tələbatdan və fərdi bankların siyasətindən asılıdır.

# Verilənlər Cədvəli

**Buraxıldıqdan sonra**

İlkin ictimai marağı təmin etmək üçün 13 martdan 3 aprelə qədər (yeni əskinazların dövriyyədə olduqları ilk üç həftə ərzində) depozitar müəssisə hər dəfə Federal Ehtiyat ofisinə 5 dollarlıq əskinaz sifarış edərkən ona yeni dizaynlı əskinazlar veriləcək. Federal Eytiyat ofislərində hələ də yaxşı vəziyyətdə olan köhnə dizaynlı beş dollarlıq əskinazlar var, çünki 5 dollarlıq əskinazın orta dövriyyə müddəti 16 aydır. 3 apreldən sonra Federal Ehtiyat Ofisləri həm yeni həm də köhnə dizaynlı əskinazları müştərilərinə təqdim edəcək; hər iki dizaynda olan əskinazlar eyni zamanda tədavüldə olacaqlar. Köhnə dizaynlı əskinazlar köhnəldikcə Federal Ehtiyat ofisləri onları yeni dizaynlı əskinazlarla əvəz edəcək.

İctimaiyyətə məlum olsun ki, həm yeni, həm də köhnə dizaynlı əskinazlar tam dəyərləri ilə etibarlıdırlar və qanuni ödəniş vasitələridir.

Bütün dünyada təxminən 2 milyard-a yaxın 5 dollarlıq əskinazlar dövriyyədədir. Federal Ehtiyat yeni dizaynlı əskinazlar dövriyyəyə daxil olduqdan sonra ilk üç həftədə 212 milyon yeni 5 dollarlıq əskinazlar buraxmağı planlaşdırır.